**SEVİL ƏLIYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
sevil.aliyeva@asoiu.edu.az

# XARİCİ DİLLƏRİN TƏLİMİ PROSESİNDƏ TƏLƏBƏ TƏLİM PORTFOLİOSU

**Açar sözlər**: portfolio, təlim metodları, özünü qiymətləndirmə, motivasiya, bacarıq və qabiliyyətlər.
**Ключевые слова**: портфолио, методы обучения, самооценка, мотивация, навыки и способность.
**Key words**: portfolio, teaching methods, self-assessment, motivation, skills and abilities.

Bilik və bacarıqların zamanında və obyektiv qiymətləndirilməsi prosesinin optimallaşdırılması müasir təlim prosesinin qarşısında duran əsas vəzifələrədən biridir. Bu prosesin dürüstlüyünün təmin olunmasında müasir texnologiyalardan istifadə olunması lazımi nəticə əldə etməyə imkan verə bilər. Informasiya texnologiyalarının inteqrasiya olunduğu cəmiyyətdə müasir təlim texnologiyalarından geniş istifadə olunması tədrisin keyfiyyətinin yaxşılaşdirilması, təlim prosesinin optimallaşdırılması və onun həyata keçirilməsini asanlaşdırmağa xidmət edır. Ənənəvi təlimdən fərqli olaraq nəticəyönümlü təlimdə tələbə nailiyyətlərinin qiymətləndirilməsi tələbələrin biliklərə yiyələmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi başa düşülür və onların irəliləyişlərinin monitorinqi; təlim prosesində qərarların qəbulu; təlim nəticələrinin qiymətləndirilməsi məqsədi daşıyır.

Xarici dillərin tədrisində əsas xüsusiyyətlərdən biri də dərslərin zəncirvari principlə öyrədilməsidir. Bu prinsip yeni materialın tədrisində əvvəlki dərslərdən əldə olunmuş biliklərə istinad olunmasına əsaslanır. İnteraktiv metoddan istifadə etməklə xarici dillərin təlimininddə daha da canlı və maraqlı dərslərə nail olmaq mümkündür. Burada əsas məsələlərdən biri də, tələbələri təlimin subyektinə çevirməkdir ki, bu da onlarda motivasiyanın yüksəlməsinə və müzakirələrdə iştirak etmək üçün bilik və bacarıqlarının daim məqsədyönlü şəkildə artırmalarına səbəb olur.

Təlim prosesində müəllimin qarşıya qoyduğu əsas məqsədlərdən biri də tələbəyə öz fəallığını, yaradıcılıq qabiliyyətini nümayiş etdirməyə imkan verən təlim metodunun seçilməsidir. Müəllimin vəzifəsi xarici dillərin təlimi prosesində tələbənin anlama qabiliyyətinin aktivləşdirilməsidir. Yeni informasiya texnologiyalarının və internet resurslarının istifadəsi tələbələrin

qabiliyyətlərinin və öyrənmə bacarıqlarını nəzərə almaqla individual və differensial təlimin həyata keçirilməsinə imkan yaradır. İnternetdən istifadə etməklə dərsdə bir sıra didaktik məsələlərin həlli mümkündür. İnternet resurslarında olan materiallardan istifadə etməklə oxu bacarıq və vərdişlərinin inkişaf etdirilməsi, tələbələrin yazı bacarıqlarının mükəmmməlləşdirilməsi, lüğət ehtiyatının zənginləşdirilməsi və tələbələrdə xarici dillərin öyrənilməsinə davamlı motivasiyanın yaradılmasına nail olmaq mümkündür. Məlumat sistemi kimi internet öz istifadəçilərinə geniş çeşiddə informasiya və resurslar təklif edir.Son dövrlərdə xarici dillərin təlimi və tədrisin keyfiyyətinin izlənilməsində ən qabaqcıl texnologiyalardan biri də, M. Demirelin qeyd etdiyi kimi, tələbənin tədris portfelinin (Portfolio) yaradılması hesab olunur. [3,s.2635]. Portfolio ümumilikdə təlim prosesinin səmərəliliyinin artırılması məqsədi ilə səy, tərəqqi və nailiyyətlərin nümayiş olunduğu işlər toplusunun elektron portfeldə təşkilindən ibarətdir. Təlim portfoliosu tədqiqat, təlim və öyrənmə məqsədi ilə tələbatların yerinə yetirilməsinə xidmət edir. Portfolio vasitəsilə qiymətləndirmənin əsas məqsədi tələbələrin təliminin təkmilləşdirilməsinə yardımçı olmaqdır. [ 2,s.169] Bir sıra qabaqcıl ali təhsil müəssisələri tərəfindən tələbələrin biliyinin qiymətləndirilməsi, tələbənin, və eləcə də müəllimin təlim prosesinə daha məsuliyyətlə yanaşması məqsədilə internet üzərindən tələbə təlim portfoliosunun yaradılması həyata keçirilir. Tədris və peşəyönümlü fəaliyyətin nəticələrinin autentik qiymətləndirilməsi metoduna əsaslanan təlim portfoliosu müasir təlim texnologiyalarından biridir.

Təlim portfoliosu bir neçə əsas ideyaya əsaslanır. Buraya aşağıdakılar daxildir:

1) Təhsil fəlsəfəsi – tədrisin necə həyata keçirilməsinin haqqında əsas ideyalar.
2) Təlim məsuliyyəti məsələləri.
3) Təlim məqsədinin qayəsi.
4) Məqsəd, təlim strategiyası, qiymətləndirmə, tədris və öyrənmə məsələləri arasında əlaqələrin müzakirəsi.
5) Tələbələrin mənimsəmə nəticələrinin sənədləri və təhlili.
6) Portfolionun təşkili prosesi ərzində əldə olunmuş informasiyaya əsaslanan inkişaf planı.

Təlim portfoliosu giriş və yaxud mündəricatdan, jurnallardan məqalələr, layihə və qiymətləndirmə, test və yaxud sorğular, yazı işləri, xəritə, cədvəl və yaxud qrafiklər, oxu materialları, audio və yaxud video materiallar, əl işləri, təltifnamə və ya sertifikatlar, şəkillər, konfrans materialları, valideynin reaksiyası, şəxsi və yaxud qarşılıqlı düşüncədən ibarət olur. “Portfolio”ya tələbənin öyrəndiyi ixtisas sahəsi ilə bağlı xarici dildə yerinə yetirdiyi sərbəst işi və yaxud prezentasiyası, xarici dili öyrənməsi ilə bağlı tədris ili ərzində aldığı qiymətlər, keçirilmiş diaqnostik testlər və yaxud

yoxlama yazı işlərinin nəticələri və onların təhlili, universitetdaxili təşkil olunan olimpiada və tələbə elmi konfranslarında iştirakının təsviri, fərdi və qrup şəkildə layihələrdə iştirakının materialları, dərsə davamiyyət qrafiki, öz fəaliyyətinə verdiyi qiymət və s. fəaliyyətləri daxil edilə bilər. Tələbə təlim portfoliosunun tətbiq olunduğu ali məktəblərin təcrübəsi göstərir ki, tələbələr şəxsi Portfolio yaradılması işinə həvəslə yanaşır, böyük şövqlə bu işin təşkilində yaxından iştirak edirlər. Bu həmçinin tələbələrdə xarici dil fənnindən əldə etdikləri irəliləyişlərin obyektiv mənzərəsinin yaranması üçün də vacibdir. Hər bölmənin sonunda möhkəmləndirici dərslərdən aldığı qiymətlər, ümumiləşdirici dərslərin testləri, yazı işləri, tərtib olunmuş dialoq və ya paraqraflar, dinləmə materiallarına aid tapşırıqların nəticələrinin bir portfelə toplanması tələbədə və onun valideynlərində, eləcə də fənn müəllimində tələbənin fənni mənimsəmə müvəfəqqiyyəti barədə aydın təsəvvür yarada bilər.

Tələbələr tələb olunan materiali toplayır, mənimsəyir və müəllimin qiymətləndirməsi üçün lazımi məlumatı hazırlayır. Bu eyni zamanda tələbədə tənqidi təfəkkürün inkişafını və tədris olunan fənnin daha da dərindən qavranılmasını təmin edəcək şərait yaradır. Böyük səy tələb edən tələbə təlim portfoliosunun yaradılması eyni zamanda tədris prosesində şəffaflığın təmin edilməsinə xidmət edir.Təlim portfoliosunun yaradılması həmçinin tələbələrin qiymətləndirilmə prosesinə cəlb olunmaları, bu da öz növbəsində, onların bilik və bacarıqlarının artırılması uğrunda motivasiyalarının yüksəlməsi ilə nəticlənir. Tələbə portfolioda təqdim etdiyi materialları araşdıraraq gözlənilən nəticəni əldə edib-etməməsinə nəzarət edə və əldə etdiyi nəticələr haqqında portfolioya giriş hüququ olan digər şəxslərin bu materiallar haqqında fikir və mülahizələrini öyrənə bilər ki, bu da tələbənin gələcəkdə tədris prosesi və öz təlimi haqda düzgün nəticə çıxarması ilə yekunlaşır. Öz nəticələrini müəllim və digər tələbələrlə bölüşmək imkanı tələbəni məqsədyönlü şəkildə təlimin keyfiyyətinin artırılmasına daha da məsuliyyətlə yanaşmağa vadar edir. Portfolionu zənginləşdirmək üçün tələbələrin vaxtaşırı öz savadlarını artırmaları barədə dəlillər toplaması şüurlu surətdə təlim prosesinə cəlb olunmaları və ən vacibi motivasiyanın yüksəlməsinə gətirib çıxarır. Bu prosesdən xarici dilin ikinci dil kimi tədrisində geniş istifadə olunur. Toplanmış dəlillərə testlər, tapşırıqlar, tələbələrin yerinə yetirdiyi müxtəlif növ yazı nümunələri, inşa, esselər, elmi-tədqiqat işləri, məruzələr, qeydlər, təqdimatlar, eləcə də şəkil, video və audio kasetləri misal göstərmək olar. Yazının təlimi zamanı portfolionun yaradılması daha səmərəli üsul hesab oluna bilər. Akademik yazının tədrisi zamanı tələbələr yazdıqları paraqraf və esselərin ilkin qaralama və son variantlarını təqdim etməklə yazı vərdişlərinin inkişaf dinamikasının aydın mənzərəsini nümayiş etdirə bilərlər. Nümayiş olunan işlər həm tələbənin

yazı işinin obyektiv qiymətləndirilməsi, həm də işi yoxlayan müəllimlə yanaşı digər şəxslər – başqa müəllimlər, valideynlər, yazının qiymətləndirilməsinə şüurlu surətdə cəlb olunmuş qrupun digər tələbələri və eyni zamanda, tələbənin özü də öz işini qiymətləndirmədə iştirak edə bilər.Təlimin məqsədi təkcə tələbənin materialı qavramasına əmin olmaq deyil, həmçinin onun dəyərini anlamaq və müvafiq səviyyədə müzakirələr aparmağı bacarmağa hazırlamaqdan ibarət olmalıdır. Dil portfelinin yaradılmasında əsas məqsəd təlim prosesində müəllimin tələbəni və eyni zamanda tələbənin özü-özünü qiymətləndirməsində maksimum subyektivliyə nail olunması, tələbənin xarici dili mənimsəməsində əldə etdiyi nailiyyətlər və dildən nə dərəcədə istifadə etmə bacarıq və vərdişlərinin nümayiş olunmasıdır. Təlim portfoliosu həmçinin təlimatın məqsəd və vəzifələri və sinifdə aparılan fəaliyyət arasında əlaqə yaradır.

Tələbənin nailiyyətlərini əks etdirən sənədlərin yerləşdirilməsi mərhələlər üzrə həyata keçirilir. Tələbəyə yalnız dil üzrə qabiliyyətlərini deyil, həmçinin ünsiyyət, səxsi refleks və s. kimi qabiliyyətlərini də göstərməyə imkan verilir. [4,s.27]. Təlim zamanı öyrənənlər həm prosesə, həm də əməyinin məhsuluna diqqət yetirir; tələbələrdən yüksək yaradıcıclıq və dərketmə qabilyyəti tələb olunur; o əməyinin nəticələrini təqdim etməyi öyrənir; tələbə onu qiymətləndirən müəllim qismində yeni bir rolda çıxış edir, bu da tələbənin motivasiyasının yüksəlməsinə gətirib çıxarır; bu prosesdə şəxsi maraqları olan tələbə özünü  tədris prosesinin həqiqi üzvü kimi hiss edir.Portfolio yaradılması işini həmçinin toplanmış bilik və təcrübənin sistemləşdirilməsi və əldə olunmuş tərəqqinin istiqamətlərinin müəyyənləşdirilməsi vasitəsi kimi qiymətləndirmək olar. Təlim metodu və tələbənin özü tərəfindən təlim fəaliyyətinin təşkili vasitəsi olaraq "tələbə portfeli"nin yaradılması təlim fəaliyyətinin təşkilinin komponentlərindən biri kimi və xarici dilin tədrisi zamanı tələbənin özünü tərəqqi etdirməsi üçün bir vasitə kimi də istifadə oluna bilər. Tələbələrdə şəxsi fəaliyyətə lazımi refleks vərdişlərinin, özünümüşahidə, düşüncə, tələbələrdə öz qavrama və yaradıcılıq qabiliyyətlərinin qiymətləndirilməsinin formalaşdırılması vasitəsi kimi də tətbiq oluna bilər. [5,s.77]Portfolio tətbiqinin ən üstün cəhətlərindən biri də tələbələrə öz işini qiymətləndirmə imkanının verilməsidir. Müasir təlim prosesində qiymətləmdirməninn əsas növlərindən biri olan özünü qiymətləndirmə tələbəyə öz işinə tənqidi münqsibət bəsləməyə imkan yaradır. Həmçinin yerinə yetirilmiş işin daha da təkmilləşddirilməsi, eyni zamanda öyrənənlərin bilik və bacarıqların şüurlu surətlə artırılmasına yardım edir. [1.149]. Xarici dilin öyrənilməsi üçün qarsıya qoyulmuş məqsədə çatmaq üçün geniş və şüurlu surətdə dəlillərin toplanılması və hədəfə çatmaq üçün rəngarəng və çevik addımların atılmasıdır.

Tələbənin bir və yaxud bir neçə sahədə səy, tərəqqi və nailiyyətlərini nümayiş etdirən işlərinin məqsədyönlü toplusu olan tələbə təlim portfoliosu tələbələrə vaxtaşırı irəliləyiş və səriştələrini nümayiş etdirməyə, keyfiyyətli iş yerinə yetirmək, onu inkişaf etdirmək nəqsədi ilə nümayiş etdirmək, qiymətləndirmək və təkrarlamaq kimi davamlı bir prosesi yerinə yetirməyə, eyni zamanda həm yerinə yetirmə prosesini, həm də nəticəni qiymətləndirməyə imkan yaradır. Portfolioların müxtəlif forma və məzmuna malik olmasına baxmayaraq paylaşdıqları müştərək anlayış ondan ibarətdir ki, tələbənin yerinə yetirdiyi işlər və nailiyyətləri qiymətləndiriləcək. Bu qiymətləndirmə prosesi və əldə olunan məhsulu, cəhdləri və nəticəni, təkmilləşmə və uğurları, müxtəliflik və eləcə də standartları əhatə edir.

Qiymətləndirmədə portfolionun geniş miqyasda istifadəsi sistemli təlimi bir neçə cəhətdən dəstəkləyir: təlimin və nailiyyət istiqamətlərinin daha düzgün başa düşülməsini təmin edilməsi; öyrənənlərə təlim və qiymətləndirmə barədə məlumat verilməsi; öyrənənlərin portfolio ilə işinin nəticəsi kimi tələbələr üçün peşəkar gözləntilərin genişləndirilməsi; təlimin daha yaxşı anlanılması üçün tələbələrin topladığı nümunələrin araşdırılması və bununla da tələbələrə keyfiyyət meyarının başa salınması; tələbələrə səmərəli təlim strategiyası və proqramların müəyyən edilməsində kömək etmək.Portfolionun quruluşu, tərkibi, prosedurları və qiymətləndirilməsi məqsəd və bu işə cəlb olunmuş auditoriyadan asılı olaraq müəyyən edilir. Təlim dəlillərinin toplanılması və portfolio istifadəsinin məqsədi tələbənin bilik və bacarıqlarını artırmağı dəstəkləməkdirsə, portfolionun qiymətləndirilməsi və ballar yazılmasına lüzum yoxdur. Əgər məqsəd oyrənmə və sistemli şəkildə bacarıqların nümayiş olunması anında tələbənin dəstəklənməsidirsə, portfoliolar lazımi dərəcədə standartlaşdırılmalı, qiymətləndirilmə nəticələrinin və balların tələbələr və digər şəxslərin görməsinə şərait yaradılmalıdır. Portfoliodan istifadə üçün onun məqsədinin müəyyən edilməsi, məzmuna uygun obyektlərin seçilməsi, uygun materialın seçilməsi haqqında düşünmək, portfolionu necə tərtib etmək, daxil edilən işlərin qiymətləndirilməsi üçün meyarların təyin edilməsi və eyni zamanda, tələbələrin bu meyarları anlamalarına əmin olmaq, tələbələrin inkişafına nəzarət etmək və bu tərəqqini onlarla müzakirə etmək vacib məsələlərdəndir.Portfolionun qiymətləndirilməsi məqsəddən asılı olaraq iki istiqamətdə bütünlüklə və ayrı-ayrı işlərə görə yerinə yetirilə bilər. Məqsəd bütünlüklə portfolionun qiymətləndirilməsi olduqda tələbənin ilk işlərinin keyfiyyətinin aşağı olması təbii qəbul edilir, zaman keçdikcə tələbənin əldə etdiyi proqres aydın nəzərə çarpır. Qiymətləndirmə meyarları müəllim tərəfindən tərtib olunaraq əvvəlcədən tələbələrin nəzərinə çatddırılmalıdır ki, portfolionun təşkilində bu meyarlar nəzərə alınsın. Bəzən qiymətləndirilmənin təkcə müəllim tərəfindən deyil, eləcə də, tələbənin özünüqiymətləndirməsi, tələbə yoldaşları və digər müəllimlər tərəfindən də qiymətlərin verilməsi tələbələri

bilik və bacarıqlarını hərtərəfli nümayiş etdirmək üçün daha səylə çalışmağa ruhlandırır və bu da təlimin keyfiyyətinin artırılmasına gətirib çıxarır.

Çox vaxt tələb etməsi, tərtibat və idarə olunması zamanı bir sıra m-aneələrlə rastlaşmasına baxmayaraq, portfolio yaratmaq tələbələrə müəllim və valideynləri ilə ünsiyyət saxlamaq, öz işlərini təqdim və müzakirə etməyə imkan yaradır. Tələbə təlim portfelinin yaradılması "Xarici dil" fənninin öyrənilməsi zamanı tələbənin təlim fəaliyyətinin pedaqoji müşayət olunmasının təşkili layihəsi kimi də həyata keçirilə bilər. Tədris fəaliyyətində tələbələrin sərbəstliyinin, şəxsi və professional inkişaf səviyyəsinin tərəqqisi vasitəsi kimi yerli ali məktəblərdə də tələbə təlim portfelinin istifadə olunması tədris prosesində yüksək səmərə verə bilər.

## Ədəbiyyat


1. Davies, A, & Le Mahieu, P. (2003). Assessment for learning: reconsidering portfolios and research evidence. In M. Segers, F. Dochy, & E. Cascallar (Eds.), *Innovation and Change in Professional Education: Optimising New Modes of Assessment: In Search of Qualities and Standards* (p. 141-169). Dordrecht: Kluwer Academic Publishers.
2. Kaur, Ch, Singh, S, Samad, A, Hussin, H, & Sulaiman, T. Developing a Portfolio Assessment Model for the Teaching and Learning of English in Malaysian L2 Classroom. *Published by Canadian Center of Science and Education, English Language Teaching; Vol. 8, No. 7; 2015.*
3. Melek Demirel and Hatice Duman (2015), The use of Portfolio in English language teaching and its effects on achievement and attitude. *Procedia - Social and Behavioral Sciences 191, 2634 – 2640.*
4. Osman Birgin, Adnan Baki. The Use of Portfolio to Assess Student's Performance. *Journal of Turkish science education, Volume 4, Issue 2, September 2007.*
5. Ramazan GÖÇTÜ, Portfolio Assessment in English Language Teaching (ELT)*, Journal of Education, 1(1):23-27,2012, Tbilisi, Georgia, p 23-27.*


**S.Aliyeva**

**Student's learning portfolio in the foreign language teaching**

**Summary**

This article deals with the creation of portfolio to assess students' performance. The issue focuses on the role of student's learning portfolio in the process of foreign language teaching. Creating student's learninng portfolio is one of the main methods in achieving goals in the process of teaching foreign languages. It is pointed out that "Portfolio" contains of an

independent work or presentation carried out by the student related to learning speciality on foreign languages, the assessment received during the academic year, the results and analyses of the diagnostic tests or control works, the description of participation in the Olympiad and the student scientific conference, materials of individual and group projects, schedule for attending lessons, etc. Portfolio's structure, content, procedures, and its evaluation is determined according to its purpose and audience involved to this process. The research results showed that in spite of requiring more time, there is some barriers in creating and managing portfolio. However, it enables students to communicate with their teachers and parents, and at the same time to submit and discuss their work, and also get feedbacks from their teachers and classmates.

**С.Алиева**

**Учебное портфолио студента в обучении иностранному языку**

**Резюме**

Эта статья посвящена созданию портфолио для оценки успеваемости студентов. В центре внимания - роль учебного портфолио студента в процессе обучения иностранному языку. Создание учебного портфолио студента является одним из основных методов достижения целей в процессе обучения иностранным языкам. Языковой портфель состоит из самостоятельной работы или презентации выполняемой студентом связано с изучаемой специальностью по иностранному языку, оценки, полученные в течение учебного года, результаты и анализы диагностических тестов или контрольных работ, описание участия в олимпиаде и студенческой научной конференции, материалы участия в индивидуальном и групповом проекте, график посещение уроков и т. д. Структура, содержание, процедуры и оценка портфолио определяются в соответствии с его целью и аудиторией, вовлеченной в этот процесс. Результаты исследования показали, что несмотря на то, требуется больше времени, существуют некоторые препятствия в создании и управлении портфелем. Тем не менее, это позволяет ученикам общаться со своими учителями и родителями, и в то же время представлять и обсуждать свою работу, а также получать отзывы от своих учителей и одноклассников.

**Rəyçi: Rəhimə Məmmədova**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**